


# Növbəti etiraf

## Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu dünya liderləri tərəfindən bir daha vurğulandı

**Azərbaycan neft, qaz, elektrik enerjisi istehsalçısı və ixracatçısı kimi həm tranzit ölkələrin, həm də istehlakçıların dərin hörmətini qazanıb. İndi enerji təhlükəsizliyinin milli təhlükəsizliyə bərabər tutulduğu, hətta milli təhlükəsizlik gündəliyində ön yerdə dayandığı bir vaxtda bunun nə demək olduğunu şərh etməyə ehtiyac yoxdur. Təsadüfi deyil ki, bu reallığı az qala bütün dünya etiraf edir.**
**Bu il 31 may-3 iyun tarixlərində keçirilən "Bakı Enerji Həftəsi" deyilənlərin daha bir təsdiqi oldu. Məlum olduğu kimi, həmin tədbir çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi və Bakı Enerji Forumu keçirilib.**

"Bakı-Ekspo" Mərkəzində sərgilərin açılışında çıxış edərkən Prezident İlham Əliyev sözügedən mövzuya toxunaraq deyib: "Mən hər il Xəzər Neft-Qaz Sərgisində çıxış edəndə deyirdim ki, enerji təhlükəsizliyi təkcə marşrutların şaxələndirilməsi deyil, bu, mənbələrin şaxələndirilməsidir. Bu gün hamı bunu artıq aydın görür ki, bizim halda bu, hər iki məsələdir - həm marşrutlar şaxələndirilir, həm də mənbələr şaxələndirilir. Bizim bu işə çox sadiq olan bir heyətimiz var - beynəlxalq maliyyə institutları, biz hər birimiz vahid komanda kimi çalışırıq ki, enerji təhlükəsizliyini gücləndirək, bir-birimizə müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün dəstək olaq. Onlar situativ çətinliklər və ya strateji çətinliklər ola bilər. Biz bu işdə bir yerdəyik. Mən çox fəxr edirəm ki, Avropa İttifaqının liderləri Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu, çox vacib bir məsələdir".

Avropanın enerji təhlükəsizliyində Azərbaycanın önəmli rolu danılmazdır və o da təsadüfi deyil ki, bu, hər yerdə etiraf edilir. "Bakı Enerji Həftəsi"ndə də belə oldu. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R. Baydenin dövlətimizin başçısına "Bakı-Enerji Həftəsi" ilə bağlı məktubunda deyilirdi: "Bu tədbir ölkələrimizin təhlükəsiz və təmiz enerji ilə bağlı gələcəyə birgə sadiqliyini vurğulayır. Azərbaycan bu səylərin həyata keçirilməsində vacib rol oynayır. Azərbaycan təhlükəsiz enerji təchizatına olan tələbatın ödənilməsinə yardım etməkdədir - buraya "Cənub qaz dəhlizi" daxil olmaqla, Orta dəhlizin inkişafı və enerji çevikliyini gücləndirən enerjinin şaxələndirilməsinin artırılması daxildir. Qlobal iqlim məqsədlərinə nail olmaq üçün Azərbaycanın səyləri, o cümlədən bərpaolunan enerjinin inkişafının artırılmasına və enerji səmərəliliyinin gücləndirilməsinə dair təşəbbüslər məni sevindirir."

ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyatt isə tədbirin bilavasitə iştirakçısı idi və burada çıxış edərək dedi: "Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaş olub. ABŞ bundan sonra da əməkdaşlığı davam etdirəcək və əmindir ki, etibarlı enerji mənbələri Azərbaycan tərəfindən təmin olunacaq. Əlbəttə ki, mühüm iqlim hədəflərimizlə bağlı da əməkdaşlıq edəcəyik".

Böyük Britaniyanın Baş naziri Rişi Sunak da "Bakı Enerji Həftəsi"nin açılışı münasibətilə dövlətimizin başçısına məktub ünvanlamışdı. O, yazırdı: "Etibarlı enerji tərəfdaşı olan Azərbaycan qlobal enerji müstəvisində vacib rola malikdir. Azərbaycanın 2027-ci ilədək Avropaya nəql ediləcək təbii qazın həcminin 20 milyard kubmetrə qədər artırılması məsələsinə sadiqliyi artıq Avropanın enerji təhlükəsizliyinə töhfə verməkdədir".

Baş nazirin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson isə forumda çıxış edərək bu fikirləri daha da genişləndirdi: "Böyük Britaniya dəniz enerjisi sahəsində mühüm təcrübəyə malikdir və Azərbaycan hökuməti ilə əməkdaşlıq çərçivəsində "yaşıl enerji"yə keçid sürətləndirilə bilər. Azərbaycanda təmiz enerjiyə sürətli keçid üçün bütün imkanlar var. 30 ildən artıqdır ki, Böyük Britaniya və Azərbaycan güclü tərəfdaşlıq əlaqələri qurublar və indi biz "yaşıl enerji"yə daha çox diqqət yetiririk. Azərbaycan bərpaolunan enerjinin inkişafı sahəsində Böyük Britaniyanın əsas tərəfdaşlarından biridir. Təbii ki, Böyük Britaniya bu sahədə Azərbaycana dəstəyini davam etdirəcək".

Sərgilərdə və forumda çıxış edənlərin hamısı Azərbaycanın enerji siyasəti haqqında ən müsbət fikirlər söyləyiblər. Məsələn, Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım Kristina Lobillo Borrero deyib: "Biz həm Azərbaycanda, həm də Avropa İttifaqında enerji təhlükəsizliyini gücləndirmək, bərpaolunan enerji sərmayəsini açmaq və uzun müddət ərzində bazarlarımızda ticarəti təşviq etmək öhdəliyimizə sadiqik. Bu baxımdan Azərbaycanda elektrik enerjisi haqqında qəbul edilmiş yeni qanunu alqışlayırıq. Bizim tərəfimizdən Avropa İttifaqı qanunvericiləri bu yaxınlarda yeni enerji səmərəliliyi və bərpaolunan enerji tədbirləri, o cümlədən daha iddialı 2030-cu il hədəfləri ilə bağlı danışıqları tamamladılar. İqlim və enerji üzrə böyük iqtisadiyyatlar forumunun son iclasında prezident Ursula Fon der Lyayen noyabr ayında Birləşmiş Millətlər Təşkilatının Dubayda keçiriləcək İqlim Dəyişikliyi Konfransı - "COP-28" ərəfəsində enerji səmərəliliyi və bərpaolunan enerji üçün qlobal hədəflər təyin edib. Bu baxımdan biz inanırıq ki, həmin məqsədə çatmaqda Azərbaycan da bizə dəstək olacaq. Əlbəttə ki, burada həm qaz tədarükünün artırılması, həm də yerli və beynəlxalq bazarlar üçün bu imkanlar olmalıdır. Bu baxımdan maarifləndirməyə və məlumatlandırmaya ehtiyac var. Biz də tənzimləyici çərçivə olaraq daha çox şəffaflığa nail olunması, emissiyaların azaldılması sahələrində və digər sahələrdə böyük işlər görürük. Biz Azərbaycan ilə bu istiqamətdə bərabər çalışmağa hazırıq".

Çex Respublikasının enerji və sənaye naziri Jozef Sikela isə çıxışında bildirib ki, yaxın gələcəkdə Azərbaycan Avropanın enerji strukturunda daha əhəmiyyətli pol oynamağa başlayacaq. Azərbaycan təbii qazla yanaşı, "yaşıl enerji" istehsalına da diqqət yetirir. Azərbaycanın iqlim şəraiti günəş və küləkdən enerji almaq imkanı yaradır. Nazir həmçinin diqqətə çatdırıb ki, Azərbaycan artıq yeni texnologiyaları cəlb edərək alternativ enerji istehsalına başlayıb. Neft-qaz istehsalı və ixracı ilə yanaşı, "yaşıl enerji" istehsalına və ixracına geniş yer verməsi onun Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu artıracaq.

"Rumıniyada aşkar edilən qaz yataqlarından azərbaycanlı həmkarlarımızla birlikdə təbii qaz hasil edəcəyik", - deyən Rumıniyanın energetika naziri Virgil Daniel Popesku vurğulayıb ki, Azərbaycan Şərqi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Təbii qazla yanaşı, Azərbaycan Avropaya "yaşıl enerji" də ixrac etməyi planlaşdırır ki, bu da çox mütərəqqi haldır. Azərbaycanın iqlim potensialı alternativ enerji mənbələrinin inkişaf etdirilməsinə imkan yaradır və hökumət bundan düzgün istifadə edir. O, diqqətə çatdırıb ki, rəsmi Buxarest Azərbaycanla enerji sahəsində əməkdaşlıq edir.

Azərbaycan qazına ehtiyac artmaqdadır. Odur ki, təchizatın coğrafiyası daha da genişlənəcək. Son ilyarım ərzində 10-dan artıq ölkə Azərbaycana təchizatın həcmini artırmaqla bağlı müraciət edib. Prezidentimiz bunu "Bakı-Ekspo" Mərkəzində də vurğulayaraq deyib: "Əlbəttə, biz bütün dostlarımızın ehtiyaclarını ödəməyə çalışırıq. Sərmayələri də əlaqələndirməliyik ki, bazar imkanları nəzərə alınsın. Onu da vurğulayım ki, bu işdə beynəlxalq maliyyə institutlarının dəstəyinə ehtiyacımız var. Bilirik ki, bu gün "yaşıl enerji"yə gəldikdə, bəzi beynəlxalq maliyyə institutları neft-qaz sahəsini maliyyələşdirməyi dayandırıb. Amma mən hesab edirəm ki, biz bir balaca realist olmalıyıq. Çünki qaz və neft təchizatı olmadan enerji təhlükəsizliyi tam olaraq təmin edilə bilməz".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 11 iyun.- S.2.